Azərbaycan TEXNİKİ Universiteti

## Beynəlmiləlləşmə Siyasəti

# MÜNDƏRİCAT

**Giriş** .................... 2
**AzTU-nun Beynəlmiləlləşmə ilə əlaqəli göstəriciləri** .................... 3
**Ali təhsilin beynəlmiləlləşməsinə AzTU-nun yanaşması** .................... 4
**AzTU-nun beynəlmiləlləşmə siyasətinin əsas istiqamətləri** .................... 6
**Əsas Fəaliyyət Göstəriciləri: illər üzrə nəzərdə tutulub** .................... 9
**İstinadlar** .................... 10

**Bakı, 2022-ci il**

# Giriş

Azərbaycan Texniki Universitetinin Beynəlmiləlləşmə siyasətini, habelə istiqamətlərini, vəzifələrini və əsas aparıcı meyarlarını özündə cəmləyən bu sənəd Azərbaycanın Ali təhsilinin inkişaf və islahatlarına aid olunan dövlət səviyyəli qəbul olunmuş strateji sənədlərə, qanunlara, sərəncamlara və proqramlara uyğun məzmunda hazırlanmış, AzTU-nun 2030- cü il üzrə hazırlanmış inkişaf strategiyasını əsas almışdır.

Eyni zamanda bu sənəd hazırlanarkən ali təhsildə gedən islahatlar, yeni çağırışlar və ali təhsilin beynəlmiləlləşməsinə aid xarici qaynaqlara aid ən vacib sənədlərə istinad olunmuşdur. Beynəlxalq təcrübəyə əsasən Əsasən Ali təhsilin beynəlmiləlləşməsi strateji olaraq müxtəlif yanaşmaları müəyyən etmək olur ki, bunların əsasən aşağıda qeyd olunan 4 məsələ ətrafında formalaşdığını deyə bilərik:

- Universitetin daxili xüsusiyyətinə görə;
- Universitetin təyinatına görə;
- Təklif etdiyi müxtəlif təhsil proqramlarınıngörə;
- Təqdim etdiyi təhsil səviyyələrinə görə: bakalavr, magistr, doktorantura.

AzTU inkişaf strategiyasında qeyd olunan əsas hədəflərinə çatmaqdan ötrü beynəlmiləlləşmə aparıcı istiqamət və vasitə kimi qəbul edir, təhsilin və tədqiqatın inkişafı üçün ən yaxşı xarici təcrübənin öyrənilib universitetdə tədbiq olunmasına priorittet məsələ kimi baxır. Eyni zamanda Beynəlxalq əməkdaşlıq vasitəsi ilə əldə olunmuş AzTU təcrübəsinin Azərbaycanın ali təhsil sisteminin inkişafı üçün paylaşmağı da özünün vəzifə borcu kimi qəbul etmişdir.

AzTU ali təhsilin idarə olunması, təhsilinin məzmunun müasirləşdirilməsi, öyrənmə və öyrətmənin keyfiyyətinin arıtırılması, tədqiqat və inkişafın iqtisadi və sosial faydalılığını əldə edilməsi üçün beynəlxalq əməkdaşlığa ciddi dəyər verir və AzTU-nun beynəlmiləlləşməsini planlı və idarə olunan bir proses kimi baxır.

# AzTU-nun Beynəlmiləlləşmə ilə əlaqəli göstəriciləri



23 ölkənin 117-dən çox universiteti ilə əməkdaşlıq müqaviləsi var.

- 1998 – Qara Dəniz Universitetləri Şəbəkəsinin üzvü
- 2002 – Xəzəryanı Ölkələrin Dövlət Universitetləri Assosiasiyasının üzvü
- 2013 – MDB Ölkələri Texniki Universitetlər Assosiasiyasının üzvü
- 2022 – CDIO Təşəbbüs Universitetlərinin üzvü

1978-ci ildən AzTU-da dünyanın müxtəlif yerlərindən 12 mindən çox əcnəbi tələbə təhsil alıb. Müxtəlif vaxtlarda universitetdə 40-dan çox xarici ölkədən vətəndaşlar təhsil alıb və hazırda burada təhsil alırlar.




Erasmus+ Avropa Birliyinin maliyyələşməsi ilə ümumi həyata keçirilən ali təhsildə potensialın gücləndirilməsi üzrə qrant layihələr sayı 13-dür.

**Bakı, 2022-ci il**

## Ali təhsilin beynəlmiləlləşməsinə AzTU-nun yanaşması

AzTU inkişaf strategiyasında qarşısına qoydugu hədəflərdən irəli gələrək beynəlxalq təcrübənin öyrənilməsi üçün əsas aparıcı tərəfdaş kimi qardaş Türkiyə dövlətini və mühəndislik sahəsində Avropa təhsil məkanının aparıcı ölkəsi olan Almaniya dövlətini, onların qabaqcıl ali təhsil məkanları ilə sıx əməkdaşlığı özünə əsas tərəfdaş kimi seçmişdir. Burada AzTU-nun və onun sayılıb-seçilən akademik heyətinin Almaniya universitetləri və elm məkanları ilə əməkdaşlıqdan qazanmış olduqları təcrübənin daha da genişləndirilməsinə və inkişafına münbit şərait yaradır. Eyni zamanda, Türkiyə və Azərbaycan dövlətlərinin və xalqlarının bir-birinə yaxınlığı AzTU-nun Türkiyə ali təhsil ocaqlarının illərlə toplamış olduqları ən yaxşı beynəxalq təcrübənin öyrənilməsinə ən yaxşı vasitə olacağına şübhə yaratmır.(inanırıq).

Bununla yanaşı, Azərbaycan ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiya olunduğunu nəzərə alsaq, AzTU avropanın, xüsusən yaxın-şərqi avropa ölkələrinin qabaqcıl Ali təhsil və elm ocaqları ilə əməkdaşlığa xüsusi dəyər verir, onlarla əməkdaşlığın AzTU-nun beynəlxalq elm və təhsil məkanına inteqrasiya olunması üçün əsas vasitələrdən biri kimi qəbul edir.

Bütünlükdə, AzTU-dünyanın bütün qabaqcıl elm-təhsil ocaqları ilə əməkdaşlıq etməyə qadir bir universitetə çevrilmək, ali təhsil üzrə ən nüfuzlu reytinq cədvəllərində özünə layiq yer qazanmaq, universitet daxilində beynəlxalq təcrübə qazanmış akademik heyət ilə tələbələrə qlobal əmək bazarının tələblərinə uyğun təhsil verən, müxtəlif millətlərin və mədəniyyətlərin ortaya qoymuş olduğu yanaşmaları qəbul edən və onlarla bərabər faydalı əmək qabiliyyətlərinə malik məzunların yetişdirən, və eyni zamanda sənayenin tələblərinə cavab verən müasir texnologiyalardan istifadə edən bir universitet olmaq üçün beynəlmiləlləşməyə aid bütün yanaşmalı qəbul edir. Bununla yanaşı aşağıdakı yanaşmaları əsas götürür:

- Xarici dillərin, xüsusən ingilis, alman və türk dillərinin dərindən öyrənilməsi və istifadəsi
- Xaricdə bilik və təcrübələrin artırılması üçün təhsil, tədqiqat vəya tam təhsil proqramlarını başa çatdırmaq üçün tələbə və müəllim axınının təmin edilməsi;
- Beynəlxalq akademik və elm cəmiyyətləri və onların təmsilçiləri ilə qarşılıqlı əlaqələrin qurulması və genişləndirilməsi;
- Müəllim və tələbələrin xarici təhsil və elmi məlumatlara çıxışının təmin edilməsi;

- Təhsil proqramları və onların məzmunlarının beynəlxalq əmək bazarının tələblərinə uyğunlaşdırmaq üçün ən yaxşı təcrübələrin öyrənilməsi və tətbiqi;
- Qlobal əmək bazarın tələblərinə uyğun məzunların yetişdirilməsi üçün beynəlxalq təhsil mühitinin formalaşdırılması və təbliği;
- Universitetin Qlobal elm və təhsil məkanında tanınması və özünə layiq yerin tutması;
- MİT tərəfindən hazırlanmış CDİO təşəbbüsünü mühəndislik ixtisaslarının təhsilində qabaqcıl beynəlxalq təcrübəyə əsasən tətbiqini həyata keçirmək




**Bakı, 2022-ci il**

## AzTU-nun beynəlmiləlləşmə siyasətinin əsas istiqamətləri




**İstiqamət-1: Beynəlxalq nüfuzumuzu artırmaq**

**1.** AzTU-nu beynəlxalq məkanda tanıtmaq, dünyanın və regionun nüfuzlu universitetləri, tədqiqat mərkəzləri və sənaye müəssisələri ilə əlaqələri genişləndirmək və AzTU-da tədqiqat və mühəndislik təhsilinə qlobal səviyyədə marağı artırmaq;

**Vəzifələr:**

**1.1** Qlobal ali təhsil bazarında davamlı mövqeyə malik olmaq və beynəlxalq reytinq cədvəllərində layiqli mövqeydə yer almaq;

**1.2** Beynəlxalq nüfuzlu universitet birlikləri, xarici təhsil təşkilatlarına üzvlük və qarşılıqlı fəaliyyət;

**Bakı, 2022-ci il**

**1.3** Dünyanın aparıcı qurumları (dünya universitetləri, elm və tədris mərkəzləri, transmilli şirkətlər və s. ilə); İkitərəfli və çoxtərəfli əməkdaşlıqların qurulması;

**1.4** Universitetin beynəlxalq səviyyədə tanınmasını təmin edilməsi üçün qlobal təhsil məkanında təbliğatının aparılması və bundan irəli gələrək həm real(sərgi, simpozium, forum və s.), həm də virtual vasitələrdən (korporativ sayt, sosial media və s.) faydalanmaq;

**1.5** Universitetin ölkə xaricində filial və nümayəndəliklərinin açılması və istifadəyə verilməsi.

---

**İstiqamət-2: Qlobal səriştəyə malik kadr hazırlamaq**

**2.** AzTU-da tələbələrin qlobal düşüncə tərzini inkişaf etdirən tədris və təlim metodlarından istifadənin genişlənməsi, beynəlxalq elm və təhsil məkanının imkanlarından yararlana bilən mühitin qurulması və bu mühitdə qlobal səriştəyə malik kadrların hazırlanması;

**2.1** Ən yaxşı təhsil imkanına malik aparıcı ixtisaslar üzrə ikili diplom proqramlarının hazırlanması və yüksək göstəricili tələbələrin bu proqramda iştiraklarının təmin edilməsi;

**2.2** Əcnəbi tələbələrin cəlb olunması və sayının artırılması;

**2.3** Əcnəbi müəllimlərin universitetdə tədrisə cəlb olunması;

**2.4** Tələbələrin xarici universitetlərdə mübadilə proqramları vasitəsi ilə təhsil alması;

**2.5** Tələbələrin ölkə xaricində təcrübə proqramlarında iştirakı üçün əməkdaşlıqların qurulması.

---

**İstiqamət-3: Müasir tələblərə cavab verən təhsil**

**3.** Qlobal səriştələrə malik gənclərin yetişdirilməsi üçün beynəlxalq təhsil məkanının prinsip və təlimatlarını mənimsəyərək tədrisin təşkilində əmək bazarının tələb etdiyi kompetensiyalara cavab verən müasir təhsil xidmətlərini təqdim etmək;

**3.1** Avropa təhsil sisteminin və təlimatlarının prinsiplərinə əsaslanan və beynəlxalq əmək bazarının tələblərinə cavab verən təhsil proqramlarının hazırlanıb inkişaf etdirilməsi;

**3.2** Aparıcı ixtisaslar üzrə xarici dillərdə (alman, ingilis və s.) tədris edilən təhsil proqramlarının hazırlanması;

**3.3** CDIO (Konsepsiya - Layihələndirmə - Həyata keçirmə - İdarə etmə) yanaşmasının təhsil proqramlarının yenilənməsində istifadə edilməsi – xüsusilə, Materialşünaslıq, Kompüter elmləri, Elektrik və elektronika mühəndisliyi, Maşın mühəndisliyi ixtisaslarının tədris proqramları;

**3.4** Aparıcı ixtisaslar üzrə təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi.

---

**İstiqamət-4: Beynəlxalq tədqiqat gücünü artırmaq**

**4.** AzTU-nun elm və innovasiya potensialının artırılması məqsədilə qlobal bazarın tələblərinə yönələn tədqiqatın aparılması üçün beynəlxalq aləmdə bu istiqamətdə ən yaxşı nümunələri öyrənmək, tərəfdaşlarla bərabər birgə tədqiqat işlərini həyata keçirərək beynəlxalq elmi-tədqiqat gücünü artırmaq;

**4.1** Xarici tərəfdaşlarla ortaq elmi tədqiqat mərkəz və institutlarının qurulması, və onlarla bərəbər birgə tədqiqat layihələrin həyata keçirilməsi;

**4.2** Universitetin xarici tərəfdaşlarla bərabər Beynəlxalq Elmi Konfransların təşkili təmin etməsi;

**4.3** Beynəlxalq nüfuza malik elmi nəşriyyatlarla qarşılıqlı işin təşkili (scopus, web of science və s.) və universitetin elmi jurnallarının beynəlxalq indekslərdə qeydiyyatı;

**4.4** Akademik heyətin tədqiqat yönümlü beynəlxalq şəbəkələrə üzvlüyü(google scholar,researchgate, academia vəs.), və bu şəbəkələrin resurslarından yararlanması;

**4.5** HORİZON və bunun kimi beynəlxalq tədqiqat yönümlü qrant proqramlarından akademik heyətin istifadəsinin genişləndirilməsi.

---

**İstiqamət-5: Beynəlxalq təcrübən istifadə**

**5.** Müasir tələblərə cavab verən keyfiyyətli tədris mühitinin formalaşması üçün beynəlxalq əlaqələrin genişləndirilməsi və universitetlərin beynəlxalq proqramlara daha fəal cəlb olunması yolu ilə beynəlxalq təcrübədən istifadənin artırılmasıdır.

**5.1** Müəllimlərin xarici dil biliyi səviyyəsinin artırılması (xüsusən alman və ingilis dilləri üzrə);

**5.2** Universitetin akademik və inzibati heyətinin xarici ölkələrdə qısa və uzun müddətli təhsil, tədqiqat və təcrübə proqramlarında iştirakının təmin olunması;

**5.3** Təhsil və tədqiqat yönümlü qrant layihələrində iştirak;

**5.4** Xarici mütəxəsislərin universitetimizdə ixtisas artırmaq kurslarında iştirak etməsi,akademik və inzibati heyət üçün master klassların təşkili

**5.5** Aparıcı İxtisaslar fənləri üzrə ən yaxşı dünya ədəbiyyatının mənimsənilməsi, tədrisdə istifadəsinin təmin olunması

## Əsas Fəaliyyət Göstəriciləri: illər üzrə nəzərdə tutulub

| No | Meyarların adı | orta | yaxşı | əla |
|---|---|---|---|---|
| 1 | Beynəlxalq reytinq cədvəlləri | | | |
| 2 | Əcnəbi tələbələrin qəbulu | | | |
| 3 | Tələbə mübadiləsi gedən | | | |
| 4 | Tələbə mübadiləsi gələn | | | |
| 5 | Müəllim mübadiləsi gedən | | | |
| 6 | Müəllim mübadiləsi gələn | | | |
| 7 | Tədqiqat və təcrübə proqramlarında iştirak tələbələr | | | |
| 8 | Xarici dildə olan təhsil proqramları(İngilis, Alman) | | | |
| | Beynəlxalq akreditasiya olunmuş proqramlar | | | |
| 9 | Əcnəbi müəllimlər | | | |
| 10 | Birgə təhsil proqramları | | | |
| 11 | Beynəlxalq tədqiqat layihələri | | | |
| 12 | Beynəlxalq təhsil-təlim, potensialın arıtırılması üzrə layihələr | | | |
| 13 | Beynəlxalq tədqiqatlara cəlb olunan akademik heyət | | | |
| 14 | Universtetin nəşr etdiyi beynəlxalq elmi jurnallar | | | |
| 15 | Beynəlxalq konferans və forumlar | | | |

# İstinadlar


*1. Globalisation and Internationalisation of Higher Education*
*https://educationaltechnologyjournal.springeropen.com/counter/pdf/10.7238/rusc.v8i2.1247.pdf*
*2. Internationalisation of Higher Education in Europe and its assessment, trends and issues*
*http://www.obiret-iesalc.udg.mx/sites/default/files/adjuntos/internationalisation_of_higher_education_in_europe_de_wit.pdf*
*3. Bolonya prosesi təhsilimizə nə verib?Azərbaycan Elm və Təhsil Nazirliyi*
*https://edu.gov.az/az/news-and-updates/9362*
*4. Azərbaycan Texniki Universiteti*
*https://www.aztu.edu.az/az/page/universitetin-tarixi-10*
*5. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında*
*AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*
*https://e-qanun.az/framework/40711*
*6. “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində xaricdə təhsil alacaq gənclərin seçilməsi meyarları və prosedurları üzrə Qayda”nın təsdiq edilməsi haqqında*

*AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI*
*https://e-qanun.az/framework/49751*

7. *AzTU-nun 2021-2030-cu illər üçün İnkişaf Strategiyası*
8. *İnternationalization*
   *Internationalization | NAFSA*
9. *İnternationalization of Higher Education*
   *https://www.europarl.europa.eu/RegData/etudes/STUD/2015/540370/IPOL_STU(2015)540370_EN.pdf*
10. *İnternationalization of Higher Education in Europe and its assessment, trends and issues*
   *https://www.eurashe.eu/wp-content/uploads/2022/02/wg4-r-hans-de-wit-internationalisation-of-higher-education-europe-december-2010.pdf*

**Bakı, 2022-ci il**